**Ağcabədi, Ağdam, Bərdə, Tərtər və Füzulidə bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrlə bağlı keçirilən monitorinqə dair məlumat**

**(6 noyabr 2026)**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları Ağcabədi, Ağdam, Bərdə, Tərtər və Füzuli rayonlarında yerləşən bitki mühafizə vasitələri və aqrokimyəvi maddələrin saxlanma anbarlarında, satış mağazalarında monitorinq keçirib.

Nəzarət tədbirləri zamanı pestisid və aqrokimyəvi maddələrin saxlanılması və satış şəraiti, sanitar-gigiyenik qaydalar, dövlət qeydiyyatı, etiketləmə qaydaları, məhsulun keyfiyyəti və yararlılıq müddəti yoxlanılıb. Bərdə, Tərtər və Ağcabədi rayonlarında yerləşən anbar və satış mağazalarında təsiredici maddəsi qadağan edilmiş, hermetikliyi pozulmuş, mənşəyi məlum olmayan və istifadə müddəti bitmiş preparatlar aşkar edilərək saxlanca qoyulub və satışının qarşısı alınıb. Həmçinin qanunvericiliyə uyğun digər zəruri tədbirlər görülüb.

Bununla yanaşı, sahibkarlara müvafiq tövsiyələr və icrası məcburi göstərişlər verilib.